## "Eşidir şairi, dünya kar deyil"

"Yerinə düşər deyək ki, biz Nəriman Həsənzadədən və onun yaradıcılığından şairliyin necə olduğunu, yaddaşa, tarixə, milli-etnik kökə sadiq olan müasirliyi, bütöv millətin qəlbindən keçənləri demək bacarığını, hadisələrə, eləcə də tarixə obyektiv yanaşmaq qabiliyyətini, sadədən sadə olmaq keyfiyyətini əxz edirik".

Professor Buludxan Xəlilov xalq şairi Nəriman Həsənzadənin yeddi cildlik "Seçilmiş əsərləri"nin birinci cildinə yazdığı ön sözdə belə deyir və fikrini akademik Nizami Cəfərovdan gətirdiyi sitatla tamamlayır: "Nəriman Həsənzadə yalnız bu günün şair-mütəfəkkiri deyil, o, tarixin övladıdır, onun yaradıcılığı Azərbaycan ədəbiyyatının məhz hadisəsidir".

Bu hadisənin var olması yolundasa o, bir şair ömrünü yaşatmaq üçün bir insan ömrünü girov qoymağı ləyaqətlə bacarıb. Bilib ki:

Quru bir səsdirsə vətənsiz şair,
Şairsiz vətən də - şöhrətsiz imiş…

Hər necə olsa da N.Həsənzadənin "Tək şeirlə bitən deyil xatirələrim" etirafının ardınca yenə şeir, şeir… şeir gəlir. Bu şeirlər səmimi, kövrək və duyğuludu. Bütövlükdə isə həyatın hər bir detalı Nəriman üçün şeir biçimindədi. O, lap elə xəncər tiyəsində, yəhər qaşında şeir görə bilir. Adam hərdən bu şeirlər haqqında söz deməyə, fikir söyləməyə çəkinir. O mənada ki, bəhs edəcəyi şerin zərif ahəngini pozmağa qıymır, şərhində yanılacağını göz altına alır.

Şairin müşahidəsi dəqiqdi ki, "dünya bir pəncərə deyil, dünya yaşamaq yeriymiş". Ancaq yaşamaq yeri olan bu qəribə dünyanın yaşamağı zor işə çevirən iskiri də olmamış deyil:

Bir səs dəyir qulağıma,
İlişirlər ayağıma.
Tülkü çıxır qabağıma,
Tülküsən deyə bilmirəm.

Qabağa çıxan tülküyə "tülküsən" deyə bilməməyin ağrısı Nəriman Həsənzadənin bütün yaradıcılığının iç dünyasından keçir. Ancaq şair bu ağrını həyat, cəmiyyət, vaxt və bəxt haqqında olan düşüncələrinin mantar qatında bətləyib-bələyə bilir. Elə bu səbəbdən də N.Həsənzadənin təsvirində bu deyilənlər, önə çıxarılan mətləblər bayağı, şit görünmür. Onun poeziyası iç dünyaya, alt qata hesablanıb - nə qədər sadə, anlaşılan və dil ucunda bitib qalan olsa da belə. Nəriman ən böyük ağrısını, ən böyük nisgilini, hətta coşqun etirazını belə səmimiyyət köynəyindən keçirib təqdim elə bilir. Tutaq ki, istiqlal şairi Əhməd Cavadın məzarı önündəki düşüncələrini:

Qaynadı ilhamı, daşdı ilhamı,
Kəsdi qabağını min fitnə, qərəz.
Əvəzi nə oldu? - bir "büst bayramı",
Allah götürərmi, Allah götürməz!..

Nəriman ömrün nisgilli anlarının xatirəsi fonunda belə ümid, şükranlıq effekti yarada bilir:

Qoy bir söz deyim, çıxartma yaddan,
Bu da, necə deyər, bir məsləhətdi.
Çalış ki, əvvəlcə yanılmayasan,
Təəssüf ikinci məğlubiyyətdir.

O, ən özəl giley-güzarının, umu-küsüsünün, eyni zamanda ərkinin gözünə belə xoş bir yumor duyğusu, ironiya, olanı dilə gətirmək şuxluğu qata bilir:

Niyə məndən inciyibsən, a mehribanım,
Məndən başqa inciməyə adammı yoxdu?
Məni mənsiz yaşadanım, məni duyanım,
Mən ki, Tanrı şairiyəm, Tanrınmı yoxdu?

…Taladılar, dağıtdılar, söküb-yığdılar,
Aşağılar yuxarıya qohum çıxdılar.
Hərəsi bir mülk tikdirib, yüz ev yıxdılar,
Sənə qurban, and içməyə Quranmı yoxdu?

Şair ona ayrılıq ağısı yaşadan kəsin məzarı önündəki düşüncələrin sözdən heykəlini elə yonub ki, oxucu məyusluq hissi yaşamaq əvəzinə müdriklik dərsi almış olur:

Ayrılıq əbədi bir qəmdi, nə qəm,
Nə arzuya qıyır, nə yaşa baxır.
Mən daşa baxmaqdan daşa dönmüşəm,
Üz-üzə durmuşuq: daş daşa baxır…

Göz üstə saxlananın ayaq altda torpaq olmasının talesizliyinə şerin diliylə yas tutmaq ucalığı Nəriman qələminin boyuna biçilib.

Şairin "Pənahi Makulunun dəfnində" şeri öz yığcamlığında qədim bir millətin yaşam tərzinin epoxasını bütün çalarları ilə əks etdirir. Elə bil ki, bu şeir yazılmayıb, fikrin, düşüncənin hazır qəlibinə tökülüb:

Bir az ağırlaşdı çiyinlərimiz,
Bir tabut altına yerləşə bildik.
Bir torpaq üstündə ayrılsaq da biz,
Bir tabut altında birləşə bildik.

N.Həsənzadənin "Oğuz eli" nəşriyyatında yenicə çapdan çıxan "Nuru Paşa" kitabına isə şairin eyni adlı poeması daxil edilib. Akademik Nizami Cəfərovun kitaba yazdığı əhatəli ön sözdə deyilir: "Nuru Paşa, yaxud Qafqaz İslam ordusu artıq bir tarixdir, özü də tamamlanmış bir tarixdir… Ancaq Nuru Paşanın (və onun ordusunun) missiyası o qədər canlıdır ki, qəhrəmanın (və qəhrəmanların) XX əsrin əvvəlindəki tarixi canlılığı ilə heç müqayisə oluna bilməz…"

"Qardaş Azərbaycan türkünün mənafeyi hər bir türk üçün müqəddəsdir" düşüncəsiylə yaşayıb qəhrəmanlıq abidəsinə çevrilən Nuru Paşanın obrazı şair tərəfindən son dərəcə parlaq cizgilərlə verilib. "Türk qılıncı parlayınca tarixə istiqlal yazar" amalından doğulub bu poema - N.Həsənzadə Ənvər Paşanın "Çökməyəcək türk milləti" inamını əbədi qurtuluşa çağırış sərəncamı kimi dəyərləndirir.

**S.Hüseynoğlu**

**Ədəbiyyat qəzeti.- 2010.- 10 dekabr.-S.2.**